# *Ramiz Əzizovun 60 yaşı qeyd olundu*





*Mayın 22-də Elm və Təhsil Mərkəzi "Təfəkkür" universitetində uzun illər universitetdə kafedra müdiri, dekan vəzifələrində işləmiş professor **Ramiz Nəhməd oğlu Əzizovun** anadan olmasının 60 illik yubileyi münasibətilə tədbir keçirildi. Tədbiri giriş sözü ilə açan universitetin rektoru, professor Rahim Hüseynov Ramiz Əzizovun həyat və fəaliyyətindən danışdı, universitetdə işlədiyi illərdə universitetin professor-müəllim heyəti və tələbələr arasında böyük hörmət qazandığın dedi.*





*Tədbirdə çıxış edənlər Ramiz Əzizovun böyük elmi və pedaqoji fəaliyyətindən danışdılar, bundan sonrakı fəaliyyətində də ona möhkəm cansağlığı və yeni-yeni uğurlar arzuladılar.*

*Universitetin rektoru professor Rahim Hüseynov "Təfəkkür" universitetində işlədiyi illərdəki səmərəli fəaliyyətinə görə Ramiz Əzizovun universitetin fəxri fərmanı ilə təltif olunduğun bildirdi, fəxri fərmanı və xatirə hədiyyəsini Ramiz Əzizova təqdim etdi.*





